**2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 28 dekabr 2014-cü il tarixli 74 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 14 saylı Xəzər seçki dairəsindən Türkan bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Babayev Rövşən Əflat oğlu Mərkəzi Seçki Komissiyasına müraciət edərək səsvermə günü həmin bələdiyyəni əhatə edən seçki məntəqələrində saxtakarlığa yol verilməsini iddia edərək müvafiq tədbir görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun olduğundan icraata qəbul edilmiş və araşdırılmışdır. Mərkəzi Seçki Komissiyası nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən həmin müraciətə dair müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Müraciət etmiş şəxsə araşdırma aparılması barədə məlumat verilmiş, ona araşdırmada iştirak etmək hüququ izah edilmişdir.

Müraciətin araşdırılarkən müəyyən olunmuşdur ki, səsvermə günü həmin seçki dairəsi üzrə seçki məntəqələrindən dairə seçki komissiyasına heç bir müraciət və şikayət daxil olmamışdır.

Araşdırma zamanı 14 saylı Xəzər seçki dairəsi dairə seçki komissiyasının sədrinin, həmin seçki dairəsinin 22, 23, 24, 25, 26 və 34 saylı seçki məntəqəsi məntəqə seçki komissiyası üzvlərinin, həmçinin seçki məntəqələrində müşahidə aparmış müşahidəçilərin izahatlarına əsasən səsvermə günü hər hansı qanun pozuntusunun və ya saxtakarlığın edilməsi iddiası öz təsdiqini tapmamışdır.

Belə ki, müşahidəçilər Rzayeva Məqsudə Oqtay qızı, Rəhimov Ramin Rafael oğlu, Əhmədov Elman Məhəmməd oğlu, Məmmədli Jalə Nəsir qızı, Əhmədov Rafiq Yaşar oğlu, həmçinin həmin bələdiyyə üzrə qeydə alınmış və yetərli səs toplamamış namizədlər Quliyev Rövşən Seyman oğlu, Quliyev İlyas Əlmin oğlu, Əliyev Şahin Eyyub oğlu, Əliyev Vüsal Afixan oğlu, Əliyev Akif Abdulla oğlu və Bəhlulov Elxan Oqtay oğlu izahatlarında bildirmişlər ki, səsvermə prosesi seçki qanunvericiliyinin tələblərinə uyğun təşkil edilmiş və keçirilmişdir. Səslərin hesablanması başa çatdıqdan sonra səsvermənin nəticələrinə dair məntəqə seçki komissiyalarının protokolları qanunvericiliyə uyğun tərtib olunmuş, komissiya üzvləri tərəfindən imza edilmiş, protokolun bir nüsxəsi məlumat lövhəsindən asılmış, surətləri səsvermə otağında olan müşahidəçilərə və qeydə alınmış namizədlərə təqdim olunmuşdur.

Tam, obyektiv və qərəzsiz araşdırma ilə əldə edilmiş yazılı sübutlarla müraciətdə iddia olunan hallar təkzib olunduğundan şikayət təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. 14 saylı Xəzər seçki dairəsindən Türkan bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Babayev Rövşən Əflat oğlunun 28 dekabr 2014-cü il tarixli 74 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |